SPORTSMAN

KRAKÓW MAŁOPOLSKA EG2023 3rd EUROPEAN GAMES

№ 143 / 2023 / 10 manat    www.sportsman.az    Jurnal 2004-cü ildən nəşr olunur


# Avropa Oyunlarından 11 medal




AZƏRBAYCAN BOKS FEDERASİYASI

AZƏRBAYCAN BOKS FEDERASİYASI · AZERBAIJAN BOXING FEDERATION · abf


OCAQ
SPORT
KLUBU


ÖVLADLARINIZIN SAĞLAM, AKTİV VƏ EYNİ ZAMANDA GÜCLÜ OLMASINI İSTƏYİRSİNİZ!? O ZAMAN ONLARI GİMNASTİKA MƏŞQLƏRİNƏ YAZDIRIN. GİMNASTİKA MƏŞQLƏRİ ÜÇÜN RAHATLIQLA ETİBAR EDƏCƏYİNİZ MƏKAN İSƏ "OCAQ SPORT" KLUBUDUR.
ƏLAQƏ NÖMRƏSİ: +99470 879 93 69 / +99450 642 92 82
ÜNVAN: ABBAS SƏHHƏT KÜÇƏSİ 2, HEYDƏR ƏLİYEV ADINA İDMAN ARENASI
WWW.OCAQSPORT.AZ
OCAQKLUB
OCAQSPORTKLUBU
Ocaq
SPORT KLUBU

Global
Human
Resource
Solutions

*Global Solutions for Global Challenges*

# XİDMƏTLƏRİMİZ

- ✓Yüksək kvalifikasiyalı kadrların seçilməsi
- ✓Fəaliyyətin qiymətləndirilməsi
- ✓Təlim və inkişaf
- ✓İR Autsorsinq və Autstaffinq
- ✓İR prosedurların və qaydaların hazırlanması
- ✓Layihələrin idarəolunması
- ✓Əməyin ödənilməsi və mükafatlandırma



- ✓Miqrasiya məsələri və işgüzar səfərlərin təşkili

+994 55 201 91 61
info@globalhrs.org
www.globalhrs.org

NTC

LLC

New Technology Corporation

20

İL SİZİNLƏ

ABB

Azərbaycan Beynəlxalq Bankı

*Müasir, Faydalı, Universal*

# BU SAYIMIZDA





*III Avropa Oyunları 2023*

səh.6



*Taekvondo üzrə XXVI dünya çempionatı*

səh.22



*“Əziz Şuşa” beynəlxalq velosiped yarışı*

səh.26



*Türkiyədən 12 medal*

səh.30



*Azərbaycan millisi Avropa çempionu*

səh.32



*Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “IRONWIND” turniri*

səh.34



*300 kq nəticə ilə möhtəşəm qələbə!*

səh.38



*Zemfira Meftahətdinova*

60

səh.40



*Milli Olimpiya Komitəsinin yeni tərəfdaşları*

səh.42



*Mirağa Quliyev: “Dövlətə, millətə sağlam, vətənpərvər övlad yetişdirməliyik!”*

səh.44



**SPORTSMAN**

**Baş redaktor:**
Rəşad Qəmərşahoğlu
*əməkdar jurnalist*
*idman ustası*

Ünvan: Bakı, Fətəli Xan Xoyski 10,
Tofiq Bəhramov adına
Respublika Stadionu
Telefon: 012 511 15 32
e-mail: sportsmagazine@mail.ru
www.sportsman.az

Jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. №1164

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Reklamlarda gedən mətnlərə görə jurnal məsuliyyət daşımır.

Jurnalda "AZƏRTAC" DİA-nin materiallarından istifadə edilib.


***Üz səhifədə:***

**Avropa Oyunlarının boks üzrə gümüş mükafatçısı Məhəmməd Abdullayev Azərbaycan idman İctimaiyyətinin nümayəndələri ilə**






İlk dəfə 2015-ci ildə Bakıda keçirilən Avropa Oyunlarına bu dəfə Polşa ev sahibliyi edib. III Avropa Oyunlarının təntənəli açılış mərasimi iyun ayının 22-də Polşanın Krakov şəhərində “Henik Reyman” stadionunda təşkil olunub.

1953-cü ildə inşa olunan bu arenada “Visla” futbol klubu öz oyunlarını keçirir. Ümumilikdə 33 min 326 tamaşaçı tutumuna malik stadiondakı açılış mərasimi dolu tribunalar önündə gerçəkləşib. Tədbirin bütün biletləri bir ay öncədən satılıb.

Açılış mərasimində Avropa Olimpiya komitələri, təşkilatçı ölkə Polşanın rəhbər şəxsləri, həmçinin digər ölkələrdən olan qonaqlar, o cümlədən Azərbaycan Gənclər və İdman Nazirliyinin və Milli Olimpiya Komitəsinin rəsmiləri iştirak ediblər.

Tədbirin bədii hissəsi xoreoqrafiyası ilə göz oxşayıb. Musiqi və rəqslərin sintezindən qurulmuş ssenaridə polşalı



müğənnilər Trbos və Roksi Vengel, Ukraynanın “Kaluş” hip-hop qrupu kimi tanınmışlar da iştirak edib. Həmçinin Kşiştof Çuqovski, Qoleç və Orkestr, Zakopover, Darya je Şląsk, Kamil Bednarek, Munyek və Prjyaasiele də açılış mərasiminin ulduz qonaqları sırasında yer alıblar.

Açılış mərasimində idmançıların paradı da olub. Azərbaycan millisi paraddan keçib. Bayrağımızı idman ustası, dəfələrlə Azərbaycan çempionu, beynəlxalq turnirlərin qalibi və 70 metr məsafədə oxatma üzrə ölkə rekordçusu Yaylagül Ramazanova və İslam Həmrəyliyi Oyunlarının gümüş, komanda üzrə isə qızıl medal mükafatçısı qılıncoynadan Barat Quliyev daşıyıb. Onu yığmamızın şef-de-missionu, Gənclər və İdman Nazirliyinin şöbə müdiri Elnur Məmmədov, idmançılar və rəsmi şəxslər müşayiət ediblər.

Azərbaycan millisi paraddan 6-cı keçib. Azərbaycan idmançıları üçüncü Avropa Oyunları zamanı Polşanın 5 müxtəlif şəhərində mübarizə aparıblar. Rəsmi keçidə isə yalnız Krakovdakı yarışlarda iştirak edəcək idmançılar qatılıblar.

Açılış mərasimində yarışın məşəli də alovlandırılıb. Krakovdakı stadionda bu vəzifəni üç yerli atlet yerinə yetirib. Sonda möhtəşəm atəşfəşanlıq olub.

İyulun 2-dək davam etmiş III Avropa Oyunlarında 48 ölkədən 7 minə yaxın id-



mançı mübarizə aparıb. Yarışlarda 29 növ üzrə 253 dəst medalın sahibləri müəyyənləşib. Azərbaycan Krakov-2023-də 14 növ üzrə 101 idmançı ilə təmsil olunub.

Qeyd edək ki, tarixdə ilk Avropa Oyunları 2015-ci ildə Bakıda, ikinci multiidman tədbiri 2019-cu ildə Minskdə baş tutub. Azərbaycan millisi bu yarışlarda 84 medal qazanıb. İdmançılarımız 26 qızıl, 25 gümüş və 33 bürünc mükafat əldə edib. Komandamız medal sıralamasında Bakı-2015-də 2-ci, Minsk-2019-da 10-cu yeri tutub.





# KARATE




İyunun 24-ü III Avropa Oyunlarında karate yarışlarına yekun vurulub. Azərbaycan karateçiləri yarışı 2 qızıl və 1 bürünc medalla başa vurublar. Qızıl medalları komandamıza Tural Ağalarzadə (67 kq) və İrina Zaretska (68 kq) qazandırıblar. Asiman Qurbanlı (84 kq-dan yuxarı) isə üçüncü olub. Üç medalla Azərbaycan millisi ümumi sıralamada ikinci pillədə qərarlaşıb. Hesabında 2 qızıl, 1 gümüş və 1 bürünc mükafat olan Ukrayna yığması birincidir. İlk üçlüyü İspaniya millisi (2-0-1) tamamlayıb.

Karate yarışlarında, ümumilikdə, 22 ölkədən idmançılar mükafatçılar sırasında yer alıblar.









KRAKÓW MAŁOPOLSKA
EG2023


KRAKÓW MAŁOPOLSKA
EG2023
we are
HUN


EUROPEAN GAMES
ORLEN


CRO


KRAKÓW MAŁOPOLSKA
EG2023
ORLEN

# KİKBOKS








Azərbaycan kikboksçusu Fərid Ağamoğlanovun III Avropa Oyunlarında çıxışı uğurlu alınıb. Yarışda 63,5 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız yarımfinalda Norveç təmsilçisi Milton Ameriko Barrios Qalaretta ilə qarşılaşıb. Full kontakt növündə mübarizə aparan təmsilçimiz rəqibinə 3:0 hesabı ilə qalib gələrək qızıl medal uğrunda döyüşdə iştirak hüququ qazanıb.

Finalda Fərid İtaliya təmsilçisi Damiano Tramontana ilə qarşılaşıb. Rəqibinə 3:0 hesabı ilə qalib gələn təmsilçimiz, Avropa Oyunlarının qızıl medalını qazanıb.



**Fərid Ağamoğlanov:**

"Finalda italiyalı idmançıdan güclü olduğumu sübut etdim. Avropa çempionatında hakimlər qələbəni ona vermişdilər və mən finalda məğlub olmuşdum.

Yarışa uzun müddət idi ki, hazırlaşırdım. İtaliyalı rəqibimlə görüşü isə xüsusən gözləyirdim. Sevinirəm ki, 44 günlük Vətən müharibəsinin iştirakçısı, qalib ölkənin əsgəri kimi, bu gün də qələbə qazandım və bayrağımızı yüksəklərə qaldırdım.

Azərbaycanlı idmansevərlərə təşəkkürlərimi bildirirəm. Qələbə və azarkeşlərin dəstəyi sayəsində möhtəşəm təəssüratlarım var. Hər kəsi, bütün Azərbaycan xalqını qələbə münasibətilə təbrik edirəm".






# BOKS






Azərbaycan millisinin heyətində ilk olaraq rinqə Murad Allahverdiyev çıxıb. 80 kq çəki dərəcəsində mübarizə aparan idmançımız ardıcıl olaraq Almaniya və Finlandiya idmançılarını mübarizədən kənarlaşdırıb. Yarımfinala gedən yolda növbəti rəqib Ermənistan təmsilçisi olub. Hər 3 raundu xeyrinə bitirən Murad, yekunda 5:0 hesabı ilə qalib gələrək növbəti mərhələyə adlayıb. Yarımfinalda Xorvatiya idmançısı Qabriyel Veoçiçə məğlub olan idmançımız yarışı bürünc medalla başa vurub. Qeyd edək ki, Allahverdiyev Avropa Oyunlarında yarımfinala yüksəlməklə “Paris-2024”ə lisenziya da qazanıb.



## Murad Allahverdiyev:

“Şükürlər olsun ki, Avropa Oyunlarında medal qazandım. Təəssüf ki, zədələrim görüşü istədiyim kimi davam etdirməyə imkan vermədi. Fikrim zədələrdə qaldı, ehtiyatı da qoruduğum üçün yaxşı döyüşə bilmədim. Rəqibim də çox güclü idi. Ona növbəti yarışlarda uğurlar arzu edirəm. Çatışmayan cəhətlərin üzərində işləyəcəyik. Bakıda 22 yaşadək boksçular arasında Avropa çempionatı keçiriləcək. Oraya hazırlaşacağam. Əsas məqsədim və hədəfim isə “Paris-2024” Yay Olimpiya Oyunlarında mükafatçılar sırasında yer almaqdır”.





Digər boksçumuz Məhəmməd Abdullayevin də III Avropa Oyunlarında çıxışı uğurlu alınıb. 92 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən dünya çempionatının mükafatçısı finala gedən yolda Nelvi Ram Tiafakla (Almaniya) gücünü sınayıb. Görüş boksçumuzun inamlı qələbəsi ilə başa çatıb. M.Abdullayev rəqibini 4:1 hesabı ilə məğlub edərək, çempionluq şansını davam etdirib. Ardıcıl olaraq Uğur Aydemir (Türkiyə), Nikoloz Beqadze (Gürcüstan), Stilianos Poulias (Yunanıstan) və Nelvi Ram Tiafaka (Almaniya) qalib gələn Abdullayev, final görüşündə Böyük Britaniya təmsilçisi Delişes Ori ilə qüvvəsini sınayıb. Rəqib 5:0 hesabı ilə qələbə qazanıb və boksçumuz yarışı ikinci pillədə bitirib.

Beləliklə, 7 çəkidə təmsil olunan boks üzrə Azərbaycan millisi Avropa Oyunlarını 1 gümüş və 1 bürünc medalla başa vuraraq, medal sıralamasında yarışı 7-ci pillədə başa vurub. Komandamız bu yerə İspaniya, İrlandiya və Türkiyə ilə şərikdir.

Hər iki boksçumuz həmçinin "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya qazanıb.

Qeyd edək ki, Avropa Oyunlarının boks yarışlarında 42 ölkədən 325 idmançı 13 çəki dərəcəsində mübarizə aparıb. Ümumilikdə boks üzrə 18 yığma Polşada medal qazanıb. Onlardan cəmi 6 ölkənin təmsilçiləri çempionluq sevinci yaşayıblar.






## Məhəmməd Abdullayev:

"III Avropa Oyunlarında finaladək irəlilədiyim və "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya qazandığım üçün xoşbəxtəm. Həlledici görüşdə iştirak etməyin özü də bir fəxrdir. Əlimdən gələni etdim. Etiraf edim ki, yorğunluq var idi. Əsas məqsədim "Paris-2024" Yay Olimpiya Oyunlarında bunun əvəzini çıxmaq və qızıl medal qazanmaqdır. Zədələrim mənə çox çətinlik yaratdı. Hər döyüşdə zədələrim açılır və qannayırdı. Olimpiadaya hazırlıq üçün Azərbaycan Boks Federasiyası xüsusi plan hazırlayacaq. ABŞ və digər ölkələrdə təlim-məşq toplanışlarının təşkili nəzərdə tutulur. Paris Olimpiadasına var gücümlə hazırlaşacam".



# TAEKVONDO

***Azərbaycan taekvondoçusu Səyyad Dadaşov Polşada təşkil olunan III Avropa Oyunlarını ikinci pillədə başa vurub.***

54 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız finalda Huqo Arillo Vaskes (İspaniya) ilə qarşılaşıb. Rəqibinə məğlub olan (3:0, 3:11, 9:7) taekvondoçumuz gümüş medalla kifayətlənib.









Digər taekvondoçumuz Qaşım Maqomedov (58 kq) isə III Avropa Oyunlarında üçüncü olub.

Qaşım Maqomedov bürünc medal uğrunda qarşılaşmada italiyalı Matias Lombartire ilə qarşılaşıb. Görüşü öz xeyrinə başa vuran taekvondoçumuz (13:5, 22:4) III Avropa Oyunlarının bürünc medalına sahib olub.

Təmsilçilərimizin üçüncü medalı qazanmaq şansı isə boşa çıxıb. Belə ki, 87 kq-da döyüşən Taleh Süleymanovun səkkizdəbir finalda uduzduğu almaniyalı rəqibi Aleksander Baxmanın növbəti mərhələdə məğlub olması idmançımızın medalsız qalmasına səbəb olub. Beləcə Azərbaycan taekvondoçuları III Avropa Oyunlarını iki medalla başa vurublar.





# MUAYTAY

*Muaytay millimiz III Avropa Oyunlarında dörd idmançı ilə təmsil olunub. Onlardan üçü mükafatçılar sırasında yer alıb. Təmsilçilərimizin hər üçü bürünc medalla kifayətlənib. Medalları komandamıza 57 kq-da çıxış edən Aysu Devrişova, 63.5 kq-da Emiliya Rzayeva və 67 kq-da Xəyal Əliyev qazandırıb.*














## *Azər Həsənsoy:* İdmançının qələbə qazanmasında əsas amil taktikanın düzgün qurulmasıdır



***“Nəzərə alsaq ki, üç bürünc medalı qazanan idmançılarımız cəmi 17 yaşındadırlar, bu uğuru yüksək dəyərləndirmək olar. Düşünürəm ki, onlar yaşları və təcrübələri artdıqca ən yüksək nəticələri göstərəcəklər.***

İdmançılarımızı qarşıda Belarusda keçiriləcək MDB Oyunları və Türkiyədə gənclər arasında dünya çempionatı gözləyir. İdmançılarımız hər iki yarışa ciddi hazırlaşacaqlar. İdmançının qələbə qazanmasında əsas amil taktikanın düzgün qurulmasıdır. Taktikanı da məşqçi qurur, kənardan deyir, əgər idmançı onu eşidirsə, onda qələbə də gəlir. Əsas məsələ idmançıların məşqçinin sözünü nə dərəcədə yerinə yetirməsidir”.








İyul ayının 2-də Polşanın Krakov şəhərində keçirilən III Avropa Oyunları başa çatıb.

Yarışın bağlanış mərasimi "Henik Reyman" stadionunda baş tutub. Mərasimdə Polşa və bəzi Avropa ölkələrinin rəhbər şəxsləri, Beynəlxalq və Avropa Olimpiya Komitələrinin rəsmiləri iştirak ediblər.

Mərasim Polşanın Dövlət Himni ilə başlanıb. Ardınca iştirakçı ölkələrin bayraqları arenaya gətirilib. Azərbaycanın bayraqdarı Krakov-2023-də boks yarışında gümüş medal qazanan Məhəmməd Abdullayev olub.

Daha sonra bədii hissə çərçivəsində müxtəlif rəqs kompozisiyaları nümayiş etdirilib. Yerli ifaçılar mahnılar səsləndiriblər. Onlar arasında Viki Qabor, Sara Ceyms və Di-Cey Qromi də yer alıb.

Tədbirdə bayrağın növbəti Oyunların ev



sahibinə ötürülmə mərasimi olmayıb. Buna 2027-ci ildəki yarışın harada keçiriləcəyinin dəqiqləşməməsidir. Tədbir zamanı Avropa Olimpiya Komitələrinin bayrağı sadəcə endirilib.

Çıxışlarda yarışın yüksək səviyyədə keçməsindən, Avropa ölkələri arasında dostluğa təsirindən danışılıb.

İyunun 21-də açılış mərasimi keçirilən və 12 gün Avropanın diqqət mərkəzində olan yarışın Sülh məşəli də söndürülüb.

Qeyd edək ki, 48 ölkədən 7000-ə yaxın idmançının çıxış etdiyi yarışlarda Azərbaycan yığması da təmsil olunub. Polşaya 101 idmançı ilə yollanan millimiz 11 medal qazanıb. Bunun 3-ü qızıl, 2-si gümüş və 6-sı bürünc əyarlıdır. Komandamız ümumi hesabda isə 24-cü yeri tutub.




# TAEKVONDO ÜZRƏ XXVI DÜNYA ÇEMPİONATI

***Mayın 29-dan iyunun 4-dək Bakı taekvondo üzrə dünya çempionatına ev sahibliyi edib. "Öz gücünü alovlandır" şüarı altında sayca 26-cı dəfə keçirilən yarış Dünya Taekvondo Federasiyasının 50 illiyinə və Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə təsadüf edib. Bu münasibətlə çempionat çərçivəsində silsilə tədbirlər və yubiley konserti təşkil olunub.***

Bakının yarışa ev sahibliyi etməsi barədə qərar ötən il qəbul edilib. Beynəlxalq Olimpiya Komitəsinin İsveçrənin Lozanna şəhərindəki inzibati binasında təşkil olunan və qurumun prezidenti Tomas Baxın qatıldığı yığıncaqda bu yarış üçün 3 ölkə namizədliyini versə də, səsvermə ilə Azərbaycan qalib gəlib. Son anda Bolqarıstan istəyini geri götürüb. Nəticədə dünya çempionatını qəbul etməyə Azərbaycan və Çin iddia edib. Beynəlxalq qurum ölkəmizin bir sıra nüfuzlu yarışlara, taekvondo üzrə isə Avropa çempionatı, Qran-Pri, Olimpiadaya lisenziya xarakterli təsnifat






turnirlərinə uğurla ev sahibliyi etməsini nəzərə alaraq, dünya çempionatını Azərbaycana həvalə edib.

Ölkəmiz, mundiala ev sahibliyi etmiş MDB ölkələri arasında ikinci, Avropa ölkələri arasında isə Almaniya, Danimarka, İspaniya, Yunanıstan, Rusiya və Böyük Britaniyadan sonra yeddinci kimi tarixə düşüb.

"Baku Crystal Hall"da təşkil olunan yarışda 145 ölkədən 949 idmançı 16 dəst medal uğrunda gücünü sınayıb. Dünya çempionu olan idmançılar isə aktivlərinə 140 reytinq xalı da əlavə ediblər.

Yeddi gün davam edən çempionatda ölkəmizi Səyyad Dadaşov (54 kq), Qaşım Maqomedov (58 kq), Xanoğlan Kərimov (63 kq), Cavad Ağayev (68 kq), Eltac Qafarov (74 kq), Əliəskər Əliyev (80 kq), Taleh Süleymanov (87 kq), Həmidrza Bədriəliabadi (+87 kq), Minayə Əkbərova (46 kq), Patimat Abakorava (49 kq), Səmərrux Osmanova (53 kq), Fatimə Məcidova (62 kq) və Fəridə Əzizova (67 kq) təmsil edib.




Mayın 29-da Bakıda taekvondo üzrə 26-cı dünya çempionatının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

Açılış mərasimi iştirakçı ölkələrin, Dünya Taekvondo Federasiyasının və Azərbaycan bayrağının arenaya gətirilməsi ilə başlayıb. Hakimlər və idmançılar and içdikdən sonra söz Dünya Taekvondo Federasiyasının (WT) prezidenti Çunqvon Çuya verilib. O bildirib ki, yenidən Bakıda olmaqdan və burada dünya çempionatının keçirilməsindən çox məmnundur: "Taekvondonun evinə qayıtmaq xoşdur. Azərbaycan bir çox yarışlara ev sahibliyi edib, bura parataekvondonun yarandığı ölkədir. Sonradan bu




idman növü Paralimpiadaya salınıb. Azərbaycan idmançıları beynəlxalq yarışlarda yaxşı nəticələr göstəriblər. Bütün bunlar ölkə prezidenti İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğının nəticəsindədir".

WT prezidenti 10 il öncə Azərbaycan Prezidenti İlham Əliyevə fəxri medal təqdim edildiyini, bu gün isə fəxri medalın Birinci vitse-prezident Mehriban xanım Əliyeva da bunu verməkdən məmnunluq duyduğunu vurğulayıb.

Ardınca Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxın video-müraciəti olub. O, taekvondonun Olimpiya ailəsində xüsusi yeri olduğunu deyərək, iştirakçılara uğurlar arzulayıb.

Azərbaycan Taekvondo Federasiyasının prezidenti Kamaləddin Heydərov idmanın bu növünün Azərbaycanda populyarlığı və kütləviləşməsi barədə danışıb. O bildirib ki, milli üzvləri artıq zirvələri fəth edirlər və gənclərdə taekvondoya maraq yaranır: "Ölkəmizdə hər bir sahədə olduğu kimi, idmanda da inkişaf 100 illik yubileyini qeyd etdiyimiz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun uğurunu cənab Prezident İlham Əliyev uğurla davam etdirir. Ölkəmizdə 50-yə yaxın olimpiya idman kompleksi inşa edilib. Bunun nəticəsində Azərbaycan dünyanın aparıcı idman mərkəzlərindən birinə çevrilib, idmançılarımız beynəlxalq arenada uğur qazanırlar. Ötən illər ərzində ölkəmizdə müxtəlif idman növləri üzrə Avropa və dünya çempionatları, mötəbər yarışlar, o cümlədən I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula-1 yarışları təşkil olunub. Bu dəfə də taekvondo üzrə dünya çempionatı bizə həvalə edilib".




Kamaləddin Heydərov Dünya Taekvondosunun 50 illik yubiley tədbirini və dünya çempionatını Azərbaycana həvalə etdiyi üçün doktor Çunqvon Çuya təşəkkür edib: "Çempionatda həm ölkə, həm də iştirakçı sayında rekord qeydə alınıb. Əminəm ki, bu yarışın Azərbaycanda keçirilməsi ölkəmizdə taekvondonun daha da inkişafına təkan verəcək".

Sonra gənclər və idman naziri Fərid Qayıbov dünya çempionatını açıq elan edib və ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı videoçarx nümayiş etdirilib. Burada ulu öndərin idmana göstərdiyi diqqət və qayğıdan söhbət açılıb.

Mərasim bədii hissə ilə davam etdirilib.

Çox təəssüflər ki, XXVI dünya çempionatında idmanşılarımızın çıxışları uğursuz alınıb. Yarışın doğma Bakıda keçirilməsi təmsilçilərimizin son dərəcə həyacanlı olmasına səbəb olub. Bu səbəbdən komanda üzvlərindən heç biri mükafatçılar sırasına qalxa bilməyib. Lakin millətimizin digər təmsilçiləri öz qələbələri ilə "Bir millət, iki dövlət" şüarına sadiq qalaraq, Türk və Azərbaycan bayraqlarını ucaltdılar. Kişilər arasında 63 kq çəki dərəcəsində türkiyəli Hakan Recber bütün rəqiblərini üstələyərək dünya çempionu olub. O, finalda tailandlı Banlunq Tumtimdanqı məğlub edib. Bürünc medallara isə Xuan Yorquera Sala (İspaniya) və Karlos Navarro (Meksika) yiyələniblər.

Qadın taekvondoçular arasında 73 kq-dan yuxarı çəkidə də fəxri kürsünün ən yüksək pilləsinə qardaş Türkiyə təmsilçisi



qalxıb. Nafiya Kuş bu çəkidə ən güclü olduğunu sübut edərək qızıl medal qazanıb. Gümüş medalı Sevetlana Osipova (Özbəkistan), 3-cü yeri isə Kristina Adebayo (Dünya Taekvondosu) və Blanka Kuk (Böyük Britaniya) tutub.

Dünya çempionatına iyunun 4-də yekun vurulub. Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti Nağı Səfərov dünya çempionatının keçici bayrağını Dünya Taekvondo Federasiyasının prezidenti Çunqvon Çuya təqdim edib. Dünya Taekvondo Federasiyasının rəsmisi isə bayrağı 2025-cü ildə dünya çempionatına ev sahibliyi edəcək Çin Taekvondo Federasiyasının nümayəndəsinə verib.

Çunqvon Çu taekvondo üzrə 26-cı dünya çempionatının yüksək təşkilatçılığına görə minnətdarlığını bildirib və yarışı bağlı elan edib.

Çinin 2025-ci ildə dünya çempionatına ev sahibliyi etməsi barədə qərar Dünya Taekvondo Federasiyası Şurasının Bakıda keçirilən görüşündə qəbul olunub. Çinin Usi şəhəri dünya çempionatına ev sahibliyi uğrunda səsvermədə Sofiya (Bolqarıstan), Zaqreb (Xorvatiya) və Şarlott (ABŞ) şəhərlərini qabaqlayıb.






# “ƏZİZ ŞUŞA” BEYNƏLXALQ VELOSİPED YARIŞI

AZIZ SHUSHA
CYCLING TOUR

***İyun ayının 7-14-ü tarixlərində Gənclər və İdman Nazirliyi və Azərbaycan Velosiped Federasiyasının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Əziz Şuşa” beynəlxalq velosiped yarışı keçirilib.***







Tədbirin açılış mərasimində gənclər və idman naziri Fərid Qayıbov və Azərbaycan Velosiped Federasiyasının prezidenti Mədət Quliyev Azərbaycan idmanının inkişafından danışaraq, yarış iştirakçılarına uğurlar arzulayıblar.

Beynəlxalq Velosipedçilər İttifaqının müəyyənləşdirdiyi təqvim planına daxil edilən 2.2 kateqoriyalı, 5 mərhələli yarışda Azərbaycan, Bolqarıstan, Rumıniya və Türkmənistan milli komandaları, həmçinin Türkiyə, Niderland, Qazaxıstan, Almaniya, Monqolustan, Misir, Filippin, Belçika, Çin və İtaliya klubları iştirak ediblər. Bu ölkələrdən Qazaxıstan və Almaniya iki klubla təmsil olunublar. Ümumilikdə 14





ölkədən 16 komandanın heyətində 100-ə yaxın idmançı medallar uğrunda mübarizə aparıb. Bundan əlavə turnir idmançılara “Paris-2024” Yay Olimpiya Oyunlarına lisenziya xalları qazanmaq imkanı da verib.

Yarış Bakının Səbail rayonunda yerləşən Veloparkdan start götürüb. İlk mərhələdə velosipedçilər 150 kilometr məsafə qət edərək, Şamaxı rayonunda finiş xəttini keçiblər. İdmançılar iyunun 8-də Qəbələ - Şəki - Qəbələ marşrutu üzrə 176,2, ayın 9-da Qəbələdən Gəncə şəhərinin mərkəzinədək 170, iyunun 10-da Gəncədə təyin olunmuş marşrut üzrə dövrə vurduqdan sonra Göygöl Milli Parkınadək 102,9, 11-də isə Beyləqandan Şuşa şəhərinədək 134,9 kilometr məsafə qət ediblər.

Sonuncu mərhələnin nəticələrinə görə, birinci yeri İtaliyanın “Team Technipes İnemiliaromagna” komandasının velosipedçisi Emanuele Ansaloni, ikinci yeri Rumıniya komandasının üzvü Kristian Raileanu, üçüncü yeri




isə Ansolinin komanda yoldaşı Martin Nessler tutublar.

“Əziz Şuşa” beynəlxalq velosiped yarışında italiyalı Emmanuel Ansaloni sarı və yaşıl köynəyi özündə saxlamağı bacarıb. Yenidən veloturun ən yaxşı dağ velosipedçisi Azərbaycan millisinin üzvü Samir Cəbrayılov, ən yaxşı gənc idmançı isə Qazaxıstan komandasının üzvü Rudolf Remkhi olub.

Azərbaycan milli komandası (55:28:29) isə yarış cədvəlinin 9-cu pilləsində yer alıb. Yarış bitdikdən sonra qaliblərin mükafatlandırılması mərasimi baş tutub.

Qaliblərə mükafatları gənclər və idman naziri Fərid Qayıbov, nazir müavini Mariana Vasileva, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin icraçı direktoru Tural Novruzov, yarışın marşrut üzrə direktoru Elçin Qəhrəmanov,



daxili işlər nazirinin müavini İsmət Əliyev və Müdafiə Sənayesi Nazirliyinin nümayəndəsi İlqar Nəzərov təqdim edib.

Beynəlxalq Velosipedçilər İttifaqı tərəfindən yarışa təyin olunmuş hakimlər velotur zamanı təhlükəsizlik işlərindən çox razı qalaraq, Azərbaycanın daxili işlər orqanlarının fəaliyyətini yüksək qiymətləndiriblər.






# TÜRKİYƏDƏN 12 MEDAL

***İyun ayının sonunda Azərbaycan güləşçiləri Türkiyənin İstanbul şəhərində Yaşar Doğu, Vehbi Əmrə və Hamit Kaplanın xatirəsinə həsr olunan turnirdə 12 medal (3 qızıl, 2 gümüş, 7 bürünc) qazanıblar.***

Azərbaycan Güləş Federasiyasından bildirilib ki, beynəlxalq turnirin yunan-Roma güləşində Qurban Qurbanovla (77 kq) Murad Əhmədiyev (97 kq) ikinci, Məhəmməd Əhmədiyev (87 kq) üçüncü yeri tutub.

Qadın güləşində Birgül Soltanova (62 kq) və Elnurə Məmmədova (53 kq) bütün rəqiblərinə qalib gələrək çempion olublar. Nigar Mirzəzadə (65 kq) fəxri kürsünün 3-cü pilləsinə yüksəlib.

Sərbəst güləşdə isə Maqomed-Başir Xaniyev (70 kq) qızıl, İntiqam Vəlizadə (61 kq), Zirəddin Bayramov, Rəşid Ba-








bazadə (hər ikisi 65 kq), Orxan Abasov və Əşrəf Aşırov (79 kq) bürünc medal əldə ediblər.

Qeyd edək ki, turnirdə beynəlxalq dərəcəli hakim Xəyal Əliyev ədaləti qoruyanlar sırasında olub.









# AZƏRBAYCAN MİLLİSİ AVROPA ÇEMPİONU

***İyunun 25-də Portuqaliyanın Odivelas şəhərində keçirilən yeniyetmələr arasında Avropa çempionatının qarışıq komanda yarışlarında cüdoçularımız qızıl medal qazanıblar. Bu, Avropa çempionatlarının komanda yarışlarında qazandığımız ilk qızıl medal kimi tarixə düşüb.***




Azərbaycan komandası ilk görüşdə Niderland yığmasını 4:1, ikinci görüşdə Almaniya millisini 4:2, yarımfinalda isə İtaliya seçməsini 4:2 hesabı ilə məğlub edib.

Cüdoçularımızın final görüşündə rəqibi Fransa komandası olub. İdmançılarımız Fransa yığmasına 4:3 hesabı ilə qalib gələrək yarışın qızıl medallarını və kubokunu qazanıblar.

Millimiz, həmçinin fərdi yarış-










larda 6 qızıl və 3 bürünc medal olmaqla, 9 mükafat qazanıb və medal əyarına görə ümumi hesabda və oğlanlar arasında birinci, qızlar arasında isə dördüncü yeri tutub.

İyunun 27-də evə qələbə ilə qayıdan komandamız Heydər Əliyev adına Beynəlxalq Aeroportunda böyük coşqu ilə qarşılanıb.

Qarşılanma mərasimində ölkəmizin idman ictimaiyyətinin nümayəndələri, federasiya rəsmiləri, idmançıların yaxınları və media nümayəndələri iştirak ediblər.





# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN 100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ “IRONWIND” TURNİRİ




***Bakının Pirallahı rayonundakı Nərəkənd parkında Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Triatlon Federasiyası, həmçinin “Triterra” klubunun təşkilatçılığı və “Baku City Circuit”in dəstəyi ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “IronWind” açıq ölkə turniri keçirilib.***









Yarışdan bir gün əvvəlsə Zirə Mədəniyyət Mərkəzi - Eko Parkda "IronWind"lə bağlı mətbuat konfransı keçirilib.

Konfransdan əvvəl idmançılar Pirallahı rayonunda yarışın keçiriləcəyi məkanla tanış olublar. İştirakçılara məşq etmək şəraiti yaradılıb, yarış nömrələri verilib.

Zirə Mədəniyyət Mərkəzi - Eko Parkda təşkil edilən mətbuat konfransında Azərbaycan Triatlon Federasiyasının (ATF) rəsmiləri, idmançılar və media nümayəndələri iştirak ediblər.

Mətbuat konfransı Ümumilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş videoçarxla başlayıb.

Daha sonra ATF-nin idman direktoru Elvin Məmmədxanov çıxış edərək Heydər Əliyev ili çərçivəsində keçirilən yarışlar-








dan, həmçinin Ulu Öndərin idmana olan diqqətindən danışıb.

ATF-nin vitse-prezidenti və yarışın direktoru Rüfət Həsənov “IronWind”in açıq turnir olduğunu diqqətə çatdırıb. Ölkə xaricindən təşrif buyurmuş idmançılara yaradılan şərait barədə danışıb.

“Triterra” klubunun baş məşqçisi Aleksandr Mordasov Distansiyalar haqqında informasiya verib.

Mətbuat konfransında iştirakçılara və media nümayəndələrinə yarış haqqında geniş məlumat verilib.

**Nəhayət, iyunun 4-də keçirilən, Azərbaycanla yanaşı Türkiyə, ABŞ, Böyük Britaniya, Xorvatiya, Rusiya və digər ölkə təmsilçilərinin də qatıldığı yarışda 83 idmançı qüvvəsini sınayıb.**

Tədbir böyük maraq doğurub. Həm media nümayəndələri, həm də şəhərimizin sakinləri gözəl Xəzər dənizi mənzərəsində yarışı izləyiblər.

İdmançılar 1,9 km məsafəyə üzüb, 90 km məsafəyə velosiped sürüb və 21,1 km məsafəyə qaçıblar. Yarışa həm fərdi, həm də qrup şəklində qoşulan iştirakçılar olub.

Azərbaycan Triatlon Federasiyası uşaq idmanına diqqəti artırmaq məqsədilə Nərəkənd parkında aşağı yaş qrupu idmançılarının da kiçik qaçış yarışını təşkil edib.

Mükafatlandırma mərasimində Gənclər və İdman Naziri Fərid Qayıbov, Azərbaycan Triatlon Federasiyasının (ATF) vitse-prezidentləri Rüfət Həsənov, Azər Əliyev və ATF-nin baş katibi Seymur Hüseynov iştirak ediblər.

Birinci yeri tutan idmançılara ALUFAR tərəfindən 2000 AZN məbləğində pul mükafatı və sponsorlardan hədiyyələr təqdim olunub. İkinci və üçüncü yerlərin sahibləri isə, müvafiq olaraq, 1000 AZN və 500 AZN məbləğində pul mükafatı və sponsorlardan hədiyyələr qazanıblar.



# TRİATLON



*"IronWind"in "Absolute" kateqoriyasında medalçıları:*

*Qadınlar*
1. İnna Anisimova
2. Rabiyə Oruclu
3. Natalya Vallek

*Kişilər*
1. Oleksandr Mordasov
2. Teymur Fərəcov
3. Konstantin Vedmed

## Avropa Oyunlarında 58 idmançı arasında 6-cı nəticə

***Azərbaycan Polşada keçirilən III Avropa Oyunlarının triatlon yarışında da təmsil olunub. İdmançımız Rostyslav Pevtsov 1 saat 46 dəqiqə 58 saniyə göstərici ilə 58 iştirakçı arasında finişə 6-cı çatıb.***

Maraqlıdır ki, Pevtsov yarışın qalibindən cəmi 8 saniyə geri qalıb.








# 300 KQ NƏTİCƏ İLƏ MÖHTƏŞƏM QƏLƏBƏ!




***Zaur Cəfərov 2-ci dəfə Elitar idmançı tituluna yiyələnib, Avropa çempionu və mütləq Avropa çempionu adına layiq görülüb.***

Qırğızıstanın paytaxtı Bişkek şəhərində pauerliftinqin AWPC/WPC versiyası üzrə açıq Avropa çempionatı keçirilib. 600-ə yaxın idmançının mübarizə apardığı yarışda Qazaxıstan, Özbəkistan, Belarus, Monqolustan, Rusiya, Hindistan, Türkiyə, İran və digər ölkələrdən atletlər birincilik uğrunda mübarizə aparıblar.

Açıq Avropa çempionatında baş hakimlik edən beynəlxalq dərəcəli hakim Zaur Cəfərov həm də ölkəmizi pauerliftinqin AWPC versiyası üzrə (dopinq kontrol diviziyonunda) “bench press” hərəkətində layiqincə təmsil edib.

Altı qat dünya çempionumuz “bench press” hərəkətində 300






kq nəticə ilə Avropa çempionu və mütləq Avropa çempionu adına layiq görülüb. Bununla da o, artıq ikinci dəfə Elitar idmançı titulunu əldə edib.

Xatırladaq ki, Zaur Cəfərov Azərbaycanın Əməkdar idman ustası, dopinq kontrol diviziyonda Elitar idmançı, Beynəlxalq dərəcəli hakim, Beynəlxalq dərəcəli idman ustası, dünya kubokunun sahibi, dopinq kontrol divizyonlarında dünya və Avropa rekordçusu, 6 qat dünya, 6 qat Avropa, mütləq dünya, mütləq Avropa çempionu, 9 qat Respublika çempionu, 3 dəfə Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş Beynəlxalq turnirin qalibi və 2 dəfə mütləq çempiondur.





# Zemfira Meftahətdinova






***Mayın 31-də Azərbaycanın Olimpiya çempionu, Azərbaycan Atıcılıq Federasiyasının və Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Zemfira Meftahətdinovanın 60 illik yubileyinə həsr olunan tədbir keçirilib.***




MOK-un inzibati binasında təşkil olunan tədbirdə qurumun vitse-prezidenti Çingiz Hüseynzadə, baş katibi Azər Əliyev, gənclər və idman naziri Fərid Qayıbov, digər rəsmilər, Gənclər və İdman Nazirliyinin, həmçinin, müxtəlif





federasiyaların nümayəndələri və idmançılar iştirak ediblər.

Əvvəlcə yubilyarın idmançı karyerasını əks etdirən, ölkə xaricindən olan şəxslərin və MOK əməkdaşlarının təbriklərinin yer aldığı videoçarxlar nümayiş olunub.

Tədbirdə ilk çıxış edən Çingiz Hüseynzadə bildirib ki, Zemfira Meftahətdinova bütün dünyada sevilir. Vitse-prezident yubilyarın Beynəlxalq Olimpiya Komitəsi tərəfindən "Woman Sport" mükafatı ilə təltif olunduğunu qeyd edib. Ç.Hüseynzadə həmin mükafatı Zemfira Meftahətdinovaya təqdim edib.

Ardınca nazir Fərid Qayıbov çıxışında Zemfira Mehtafətdinovanın Azərbaycanın ilk qadın Olimpiya çempionu olduğunu qeyd edərək deyib: “Zemfira xanımla son iki ildə daha yaxından tanış olmuşam. O, həm də çox yaxşı insandır, müstəqil Azərbaycanın ilk qadın Olimpiya çempionudur. İstərdim ki, onun qızı da Olimpiya çempionu olsun. Zemfira xanımın çalışdığı sahədə də nailiyyətlərinin davam edəcəyinə inanıram”.

Bundan başqa, Azərbaycan Cüdo Federasiyasının İcraiyyə Komitəsinin üzvü Asif Əsgərov, MOK-un Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev, Olimpiya çempionları Namiq Abdullayev, Fərid Mansurov, Elnur Məmmədli, veteran idmançılar Yaqub Məmmədov, Rafiq Hacıyev, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, stend atıcılığı üzrə məşqçi Nazim İbrahimov, Əməkdar məşqçi İsmayıl İsmayılov, Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov, Daxili İşlər Nazirliyinin əlbəyaxa döyüş növləri üzrə məşqçisi Rəsul Məmmədov da çıxış edərək, Zemfira Meftahətdinovanı təbrik ediblər.

Sonda çıxış edən yubilyar tədbirin təşkilini özü üçün böyük hədiyyə adlandırıb. Göz yaşlarını saxlaya bilməyən Z.Meftahətdinova qazandığı nailiyyətlərə görə, məşqçilərinə minnətdarlığını bildirib: "Mənim idmançı və bir insan kimi formalaşmağımda məşqçimin əməyi böyük olub. Burada əyləşənlərin hər biri mənim üçün əzizdir. Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığımı bildirirəm. Onların bu sahəyə qayğısı idmançılarımızın uğur qazanmasında müstəsna rol oynayır".






# MİLLİ OLİMPİYA KOMİTƏSİNİN YENİ TƏRƏFDAŞLARI

***Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) yeni tərəfdaşlıq memorandumları imzalayıb.***

İyunun 12-də Bakıda təşkil olunan tədbirdə “Visa”, “Go Sport” və “Batıgöz” klinikası ilə tərəfdaşlığa start verilib. Müqavilələr 2024-cü ilin sonunadək nəzərdə tutulub.

Tədbirdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, baş katib Azər Əliyev və müxtəlif federasiyaların rəsmiləri iştirak ediblər.

İmzalanma mərasimində çıxış edən Çingiz Hüseynzadə ötən il MOK-un 30 illiyinin qeyd olunduğunu xatırladaraq deyib ki, Milli Olimpiya Komitəsi Prezident İlham Əliyevin rəhbərliyi dövründə uğurlu yol qət edib. Komitə dünyada tanınan və nüfuz sahibi olan qurumdur. Bey-






nəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxın ötən həftə Bakıya səfər etməsi və bir sıra görüşlər keçirməsi buna sübutlardan biridir. "Tərəfdaşlar olmasaydı, bu qədər güclü ola bilməzdik. Onların sayını daim artırmaq istəyirik. Tərəfdaşlarımızın bir çoxu Beynəlxalq Olimpiya Komitəsi ilə də əməkdaşlıq edir. Bütün yarışlara birlikdə gedirik. Onlar da bizimlə birgə uğurlar qazanacaqlar", - deyə Ç.Hüseynzadə vurğulayıb.

Tərəfdaş şirkətlərin nümayəndələri çıxışlarında əməkdaşlığın onlar üçün əhəmiyyətli olduğunu bildiriblər.

Sonra III Avropa Oyunlarında mübarizə aparacaq Azərbaycan idmançılarından bəhs edən videoçarx təqdim olunub.

Sonda tərəfdaşlığa dair memorandumlar imzalanıb.






Ramiz Vəliyev

# Mirağa Quliyev: “DÖVLƏTƏ, MİLLƏTƏ SAĞLAM, VƏTƏNPƏRVƏR ÖVLAD YETİŞDİRMƏLİYİK!”

***1999-cu ildən peşəkar idmanla məşğulam. 2016-cı ildə İtaliyada keçirilən dünya çempionatının gümüş mükafatçısıyam. 2022-ci ildən fəaliyyət göstərən “Revanş” idman klubunun direktoru və kikboksinq bölməsinin məşqçi-müəllimiyəm.***

Hazırda bölmədə 30-dan çox idmançı kikboksinqin sirlərinə yiyələnir. Azərbaycan Kikboksinq Federasiyası ilə sıx əməkdaşlıq edərək, keçirilən bütün yarış və tədbirlərdə fəal iştirak edirik. Bu yaxınlarda keçirilən Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş xatirə turnirində klubumuzun idmançıları da güclərini sınadılar. 10 idmançı ilə təmsil olunduğumuz yarışda 7 kikboksçumuz fəxri kürsüyə qalxdı. Onlardan 4-ü yalnız finalda məğlub olaraq gümüş, 2-si bürünc, ən aşağı çəkidə, 19 kq-da döyüşən Ramiz Vəliyev isə qızıl medal qazanaraq turnirin qalibi oldu. Ümumilikdə bir məşqçi kimi nəticələrdən razıyam. Düzdür, qızıl medallarımızın sayı 1 yox, bir neçə ola bilərdi. Amma bu idmandı və finalda yalnız bir qalib olur.

Məşqlərimizi davam edəcəyik. Qarşıda bizi yetərincə yarışlar gözləyir. Əsas məqsədimiz isə dövlətə, millətə, cəmiyyətə sağlam, vətənpərvər övlad yetişdirməkdir!





# KİKBOKS




### *Ramiz Vəliyev:*

## *Dünya çempionu olacam!*

Mən, Ramiz Vəliyev bu il məktəbə getməyə hazırlaşıram. Dərslərimlə yanaşı idmana da çox böyük həvəsim var. Xüsusən boksa, karateyə, ümumiyyətlə əlbəyaxa döyüş növlərinə marağım daha çoxdur. Elə buna görə kikboks idman növünü seçmişəm və artıq 1 ildir ki, Mirağa müəllimin rəhbərliyi ilə məşq edirəm. Yarışda qalib olduğuma görə çox şadam. Çünki uduzanda çox hirsli oluram. Yenidən rəqibimin üstünə atılıb döyüşmək istəyirəm. Amma Mirağa müəllim deyir ki, döyüşmək ancaq rinqdə olar, rinqdən kənarda döyüşmək qeyri-peşəkarlığın, zəifliyin əlamətidi. Siz isə peşəkar idmançılarsız və öz sözünüzü rinqdə deməlisiniz. Mən də çalışıram müəllimin dediyi hər sözə əməl edim. Çünki məqsədim dünya çempionu olmaqdır!

***Etibar Hüseynov***






# AZƏRBAYCANIN BAŞ MƏŞQÇİSİ BİR DAHA DEYƏ BİLƏCƏKMİ, ƏLA OYUN GÖSTƏRDİK...?

***2024 Avropa çempionatının seçmə mərhələsi çərçivəsində Bakıda keçirilən və 1:1 hesabı ilə nəticələnən Azərbaycan – Estoniya qarşılaşması ərəfəsində Estoniyanın "Jalka" ("Futbol") jurnalının iyun sayında "Azərbaycanın baş məşqçisi bir daha deyə biləcəkmi, əla oyun göstərdik...?" başlıqlı məqalə dərc olunub.***

***Həmin yazını təqdim edirik.***



Azərbaycan millisi tarixində ilk dəfə 2022-ci ildə ardıcıl beş qələbə qazanmaqla azarkeşləri-ni ümidləndirsə də, bu ilin ilk iki oyununda böyük hesabla məğ-lub olaraq sərt tənqidlərə məruz qaldı. Düzdür, rəqiblər son iki Av-ropa çempionatının iştirakçıları, FIFA-nın reytinqində ilk 35-də qərarlaşan komandalar olsalar və oyunlar səfərdə keçirilsə də, cəmi 1 qol vurub, 9-nu burax-maq azarkeşlər və media tərə-findən böyük uğursuzluq kimi dəyərləndirildi.

Xüsusilə AVRO-2024-ün seçmə mərhələsi çərçivəsində "Friends Arena"da İsveçlə oyun-dan (0:5) sonra mətbuat konfransında Azərbaycan millisinin baş məşqçisi Canni De Byazinin səsləndirdiyi "Fikirləşirəm ki, əla oyun göstərdik" və "Hətta heç-heçə edə bilərdik" kimi fikirlər hiddətlə qarşılandı.

Mediada və sosial şəbəkələr-də fəal şəkildə De Byazinin iste-fası tələb olunsa da, bu oyunlar-dan sonra apreldə AFFA İcraiyyə Komitəsi onun mümkün istefa-sını müzakirə edərək italiyalının vəzifəsində qalmasına və müqa-vilənin sonuna kimi işinə davam etməsinə qərar verdi. Rəsmən açıqlanmasa da, mətbuatda bu-nun təzminat məbləğinin yüksək olması ilə bağlı olduğu bildirildi.

Avropada milli komandala-rın baş məşqçiləri arasında ən yaşlılardan biri olan De Byazinin iyunun 16-da 67 yaşı tamam ola-caq.

O, 2020-ci ilin iyulunda Azər-baycan millisilə 1,5 illik müqavilə bağlamış və yerli mətbuatın mə-lumatına görə, ayda 50 min avro qazanırdı. Daha sonra 2022-ci



il üçün müqaviləsinin müddətini uzadanda maaşı azaldılaraq təxminən ayda 25-35 min avro oldu, sonra yenidən 2023-cü il üçün müqaviləsində aylıq gəlirinin artırılaraq təxminən 50-75 min avro olduğu bildirilir (Aut.az).

Beləliklə, De Byazi artıq 4-cü turnirdir, “Milli”yə rəhbərlik edir.

Ümumiyyətlə, son 15 ildə Azərbaycan millisini çalışdıran 5 məşqçidən dördü əcnəbi olub, amma komanda ən yaxşı halda DÇ-2014-ün seçmə mərhələsində qrupda 4-cü yeri tutub.

Hazırda AVRO-2024-ün seçmə mərhələsi çərçivəsində F qrupunda sonuncu 5-ci yerdə qərarlaşan Azərbaycan onun kimi xalsız olan Estoniya ilə oyunda qələbəyə ümid edir...



Azərbaycan və Estoniyanın əsas milli komandaları indiyədək rəsmi yarışlarda qarşılaşmayıblar. Rəqiblər, sonuncusu 2013-cü ildə olmaqla, səkkiz yoldaşlıq görüşü keçiriblər ki, onlardan da 3-də Estoniya, 1-də Azərbaycan qalib gəlib.

Estoniyaya qarşı daha çox - altı matçda oynamış (1 qol) Qurban Qurbanov 2008-ci ildən “Qarabağ”ın baş məşqçisidir. Azərbaycan klubu 2014/15 mövsümündən başlayaraq mütəmadi olaraq avrokubokların qrup mərhələsində çıxış edir. “Qarabağ”ın köməkçi məşqçiləri Elçin Rəhmanov 90-cı illərin sonunda “Lelle” və “Viljandi”, Zaur Tağızadə isə “Lelle” və “Flora Tallinn” klublarında oynayıblar.

Amma “Qarabağ”da eston futbolçuları olmayıb. Estoniyadan ən çox oyunçunun çıxış etdiyi Azərbaycan klubu “Neftçi”-dir: 2008-2010-cu illərdə burada Dmitri Kruglov, Andrei Stepanov, Taavi Rähn və Vladimir Voskoboinikov forma geyinib.

Martdakı iki oyunda “Qarabağ”ın hamıdan çox – altı oyunçusu Azərbaycan millisinin formasını geyinib ki, onlardan da ən tanınmışı az müddət “Zenit”, “Trabzonspor” və “Jilina” kimi klublarda çıxış etmiş 27 yaşlı hücumçu Ramil Şeydayevdir. O, millidə 10-cu yubiley qolunu məhz Estoniya ilə oyunda vurmaq niyyətindədir.

Yeri gəlmişkən, Estoniya ilə 10 il əvvəlki qarşılaşmada çıxış etmiş “Qarabağ”ın müdafiəçisi Bədavi Hüseynov qarşıdakı matçda da oynaya bilər.

Azərbaycan milli komandasının lideri və kapitanı “Spartak Moskva” və “Boavista” kimi klublarda oynamış, 2017-ci ildən “Neftçi”də çıxış edən 31 yaşlı pleymeyker Emin Mahmudovdur. “Milli” ardıcıl 23 oyundur ki, onun xidmətindən istifadə edir və bu matçlarda o, 9 qol vurub.

Azərbaycanlı legionerlər Mahir Emreli və Renat Dadaşov isə “Milli”də ümidləri doğrultmurlar. Son üç mövsümdə dörd klub dəyişən (“Qarabağ”, “Legia”, “Dinamo Zagreb” və icarədə “Konyaspor”) Mahir Emreli bu dövrdə Azərbaycan komandasında cəmi bir qol vurub. Renat Dadaşov 2022/23 mövsümündə İsveçrədə 8 qolla “Grasshoppers”in ən məhsuldar oyunçularından biri olsa da, “Milli”də keçirdiyi 21 oyunda cəmi bir dəfə fərqlənib.

***Rasim Mövsümzadə***



Mida toovad kaks õhtut juunis?



# BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN ÜZRƏ NAZİRLƏRİN VƏ YÜKSƏK VƏZİFƏLİ ŞƏXSLƏRİN VII BEYNƏLXALQ KONFRANSI




***İyunun 27-də Bakıda Bədən Tərbiyəsi və İdman üzrə Nazirlərin və Yüksək Vəzifəli Şəxslərin VII Beynəlxalq Konfransı (MINEPS VII) çərçivəsində çoxtərəfli forum keçirilib.***

Konfransın əsas məqsədi idmanla bağlı beynəlxalq tendensiyaların qiymətləndirilməsi, bədən tərbiyəsi və idman sahəsində beynəlxalq strategiyalar üçün mexanizmlərin hazırlanması olub. İyunun 29-dək davam edəcək konfransda 150-dək ölkənin bədən tərbiyəsi və idman sahəsinin məsul qurumlarının rəhbərləri və nazirlər iştirak ediblər.

Tədbirdə konfransın ölkəmizdə keçirilməsinin əhəmiyyəti qeyd olunub və forumun ikinci gününün gündəliyində duran məsələlər müzakirə edilib. “Fit for Life” layihəsinə dəstək, “İnkişaf Naminə İdmanın İnkişaf edən Məlumat Landşaftı”, “Böyük idman tədbirlərinin davamlılığı” mövzularında müzakirələr aparılıb. Forumun yekununda iştirakçılar “Fit for Life” layihəsinə dəstək olacaqlarını bildiriblər.





Sonra MINEPS VII konfransının təntənəli açılış mərasimi keçirilib. Mərasimə milli rəqs kompozisiyası ilə start verilib. Rəsmi hissədə Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov və UNESCO Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Qabriela Ramos çıxış ediblər. Çıxışlarda MINEPS VII konfransının Bakıda keçirilməsinin əhəmiyyəti vurğulanıb.

# AZƏRBAYCANIN GƏNCLƏR VƏ İDMAN NAZİRİ MINEPS VII ÇƏRÇİVƏSİNDƏ BİR SIRA GÖRÜŞLƏR KEÇİRİB




***Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov Bakıda keçirilən Bədən Tərbiyəsi və İdman üzrə Nazirlərin və Yüksək Vəzifəli Şəxslərin VII Beynəlxalq Konfransı (MINEPS VII) çərçivəsində Türkiyənin gənclər və idman naziri Osman Aşkın ilə görüşüb.***

Görüşdə iki qardaş ölkə arasında idman və gənclər sahəsində əməkdaşlığın gücləndirilməsi, yeni təşəbbüslərin dəstəklənməsi məsələləri müzakirə edilib.

Fərid Qayıbov Ekvadorun idman naziri Sebastian Palasios, nazirliyin Əməkdaşlıq və beynəlxalq əlaqələr departamentinin direktoru Karlos Alarkon Armendaris ilə də görüşüb. Görüşdə MINEPS VII tədbirinin Azərbaycanda yüksək səviyyədə təşkilinə, eləcə də konfrans çərçivəsində digər ölkələrin nümayəndələri ilə görüşlər keçirmək və müzakirələr aparmaq imkanına görə minnətdarlıq ifadə olunub.





Peru İdman İnstitutunun prezidenti Quido Flores Marcan ilə görüşdə iki ölkə arasında idman sahəsində əlaqələrin perspektivləri müzakirə edilib.

Fərid Qayıbov, həmçinin Avropa Parlamentinin üzvü, Yunanıstanın sabiq turizm naziri Elena Kundura ilə görüş keçirib. Görüşdə idman sahəsində beynəlxalq əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.



# MINEPS VII ÇƏRÇİVƏSİNDƏ YOQA TƏLİMİ VƏ SƏHƏR MARAFONU

***İyunun 28-də Bakıda Bədən Tərbiyəsi və İdman üzrə Nazirlərin və Yüksək Vəzifəli Şəxslərin VII Beynəlxalq Konfransı (MINEPS VII) çərçivəsində yoqa təlimi keçirilib.***



Hindistanlı mütəxəssisin rəhbərliyi ilə Bakı Konqres Mərkəzində keçirilən təlimin iştirakçıları yoqanın sirləri, yoqa fəndləri haqqında müxtəlif məlumatlar alıblar. Həmçinin MINEPS VII konfransı çərçivəsində Gənclər və İdman Nazirliyinin dəstəyi ilə paytaxtımızda "Səhər marafonu" adlı qaçış da təşkil edilib.

Nazir Fərid Qayıbovun da qoşulduğu marafonda iştirakçılar Ağ şəhərdə yerləşən “Bulvar otel”in qarşısından start götürməklə 3 kilometr məsafəyə qaçıblar.






# Azərbaycanın badminton üzrə yığması bürünc medal qazanaraq tarixdə ilkə imza atıb




***İyun ayının 23-ü "Port of Baku" komandası İspaniyanın Ovyedo şəhərində keçirilən Klublararası Avropa çempionatında bürünc medal qazanaraq tarixdə ilkə imza atıb.***

Aqil Qəbilov, Nərmin Hüseynova, Həcər Nuriyeva, Era Maftuha, Məhəmməd Kadafi və Diki Pangestudan ibarət komandamız qrup mərhələsində "Rekriativo" (İspaniya) və "Balozi" (Latviya) klubları ilə qarşılaşıb.

İlk görüşündə İspaniya təmsilçisinə 1:4 hesabı ilə uduzan komandamız ikinci görüşdə Latviya klubuna eyni hesabla (4:1) qalib gələrək Klublararası Avropa çempionatında 1/4 finala yüksəlib. Bu mərhələdə Portuqaliyanın "Lagoense" klubu ilə qarşılaşan "Port of Baku" gərgin və maraqlı keçən 5 setin yekununda 3:2 hesablı qələbə



qazanaraq turnirin yarımfinalına yüksəlməklə bürünc medalı təmin edib.

Komandamız debüt mövsümündə finalın bir addımlığında Klublararası Avropa çempionatının qalibi İtaliyanın "Matex Marabadminton" klubuna 0:3 hesabı ilə uduzub.

# Aerobika gimnastlarımız Misirdə üç qızıl medal qazanıblar

**Aerobika gimnastikası üzrə Azərbaycan yığmasının üzvləri Misirin paytaxtı Qahirədə keçirilən "Pharaohs Cup" beynəlxalq turnirində üç qızıl medal qazanıblar.**

Azərbaycan Gimnastika Federasiyasına istinadla xəbər verilir ki, böyüklər arasında Vladimir Dolmatov və Mədinə Mustafayeva qarışıq cütlükdə, Leyla Bejanova, Arzu Ağayeva və Xədicə Quliyeva üçlük proqramında birinci yeri tutublar.

Yeniyetmələrin yarışında isə Dilarə Qurbanova, Sara Əlixanlı, Sənəm Kazımova (üçlük proqramı) qızıl medala yiyələniblər.



# Bakıda buz meydançası istifadəyə verilib

***Heydər Əliyev adına İdman-Konsert Kompleksində buz meydançası istifadəyə verilib. Bununla bağlı iyun ayının 2-də idman obyektində açılış mərasimi keçirilib.***



Tədbirdə gənclər və idman naziri Fərid Qayıbov, müavini Mariana Vasileva, olimpiya çempionları, idman səfirləri və federasiya rəsmiləri iştirak ediblər.

Meydança ölkədə idmanın fiqurlu konkisürmə növünün inkişafına təkan məqsədilə istifadəyə verilib. Burada hokkeyin inkişafı üçün tələb olunan imkanlar da mövcuddur.

# Türk üzgüçü Asiya rekordunu yeniləyib

***Filippinin Sebu şəhərində suya sərbəst dalış üzrə "Ida Depth Challenge" turniri keçirilib. Türk idmançı Şahika Ercümen qoşa üzgəclər kateqoriyasında, müvafiq olaraq, 71, 77, 80 və 85 metr məsafələrə tullanaraq həm Türkiyə, həm də Asiya rekordunu yeniləyib.***



Şahika Ercümen əsas məqsədinin bu yay keçiriləcək dünya çempionatında medal qazanmaq olduğunu qeyd edib.




# Azərbaycanlı atlet rekordu yeniləyib

***Qazaxıstanın Almatı şəhərində keçirilən XXXII Qosanov Memorialında üç təkanla tullanma üzrə yarışda Yekaterina Sarıyeva uğurlu çıxışla yadda qalıb.***

Azərbaycan Atetika Federasiyasından məlumat verilib.

Atletimiz 13.89 metr göstərici ilə bütün rəqiblərini qabaqlayaraq birinci yeri tutub. Bu nəticə ilə Yekaterina həm də üç təkanla tullanma növü üzrə özünə məxsus olan Azərbaycan rekordunu da yeniləyib. Sarıyeva göstəricisini 1 santimetr yaxşılaşdırmaqla buna nail olub.

# Çimərlik güləşçilərimiz Fransada üç medal qazanıblar

***İyunun 30-da Fransanın Sen-Loren-du-Var şəhərində çimərlik güləşi üzrə Dünya Seriyasının III mərhələsi keçirilib. Ölkəmizi bu yarışda təmsil edən güləşçilərin hamısı medal qazanıb.***

İbrahim Yusubov (90 kq) çempion olub. Ramiz Həsənov (70 kq) və Oyan Nəzəriani (+90 kq) isə üçüncü yeri tutublar. Beləliklə, çimərlik güləşi üzrə millinin üzvləri Dünya Seriyasının III mərhələsində 1 qızıl və 2 bürünc medal əldə ediblər.

Qeyd edək ki, dördüncü mərhələ sentyabrın 9-10-da Rumıniyanın Konstanta şəhərində keçiriləcək.






# Fransanın Jardin şəhərində Azərbaycanı təmsil edən idmançımız qalib olub

***İyun ayının 21-də Fransanın Jardin şəhərində CDİ3 kateqoriyalı atçılıq idmanının dresaj növü üzrə beynəlxalq yarış keçirilib.***

Almaniya, Fransa, Belçika, Böyük Britaniya, Niderland kimi 20-dən çox ölkədən idmançıların iştirak etdiyi mötəbər yarışda Azərbaycanı Aqata və Karina Zəhrabəyovalar təmsil ediblər. Aqata Zəhrabəyova yarışa "RM Golden Showman", Karina Zəhrabəyova isə "Ein Stern" və "Delicato 2" atları ilə qatılıblar.

Gərgin keçən mübarizədə Aqata Zəhrabəyova üç yarışda 70 faizdən çox xal toplayaraq ilk üçlükdə qalmağı bacarıb, Karina Zəhrabəyova isə həftəyə 74 faizdən çox xalla yekun vuraraq "Junior Freestyle" yarışının qalibi olub.

Tədbirin sonunda qaliblər pul mükafatı, medal və kuboklarla təltif ediliblər.

# "Paris-2024" Yay Olimpiya Oyunlarına 6,8 milyon bilet satılıb

***"Paris-2024" Yay Olimpiya Oyunlarına 6,8 milyon bilet satılıb. Bu barədə "Paris-2024" Yay Olimpiya Oyunlarının Təşkilat Komitəsi məlumat yayıb.***

PARIS 2024

Bildirilib ki, "Paris-2024" üçün nəzərdə tutulan 10 milyon biletin təxminən 70 faizi satılıb. Mayın 11-dən 19-dək bilet satışının ikinci mərhələsi keçirilib. Həmin vaxt 1,89 milyon bilet sahibini tapıb.

Biletlərin 178 ölkədən alındığını bildirən Təşkilat Komitəsi qeyd edib ki, satılmış biletlərin təxminən 60 faizinin qiyməti 100 avrodan az və ya ona bərabərdir.

Fevralın 15-dən martın 9-dək keçirilmiş birinci mərhələdə 3,25 milyona yaxın bilet satılıb.

Təşkilat Komitəsi Paralimpiya Oyunlarına bilet satışına oktyabrın 9-da başlanacağını və biletlərin yarısının qiymətinin 25 avrodan az olacağını açıqlayıb.

DÜNYA MEBELİ BİR ÜNVANDA,
BİR MƏKANDA!

BİZİM EV
MEBEL ŞƏHƏRİ

BAKI-SUMQAYIT ŞOSSESİ
7-Cİ KM / RİYAD TİCARƏT MƏRKƏZİ

012 408-71-08;
050 358-35-75

www.bems.az



НОВИНКИ
с использованием натурального цельного молока и сливок
ПРОДУКТ СООТВЕТСТВУЕТ СТАНДАРТУ ТАМОЖЕННОГО СОЮЗА
ГОСТ
31457-2012
Русский Холодъ
НАСТОЯЩИЙ
ПЛОМБИР
РУССКИЙ
ХОЛОД
БЕЗ РАСТИТЕЛЬНЫХ ЖИРОВ
ПЛОМБИР 100%
НА СЛИВКАХ
ЭКСПОРТИРУЕТСЯ
МИРОВЫЕ СТАНДАРТЫ
В ЕВРОСОЮЗ
В США
rusholod.ru


Golf
MARAŞIM
BOOOL
SÜTLÜ
INTERNATIONAL TASTE INSTITUTE
2019
BRUSSELS
ÜSTÜN
LEZZET
ÖDÜLÜ
MARAŞ'TA
ÜRETİM
Golf
MARAŞIM
sade
Golf
Tadını Çıkar!
















**VIP Sport professional**

Tofiq Bəhrəmov adına
Respublika Stadionu
Tel: (+994 12) 564 86 23
Mob: (+994 55) 464 13 31
www.vipsport.az




(+994) 12 525 41 52
(+994) 55 208 97 82

Nərimanov rayonu,
Aşıq Molla Cümə 46b

salon@offissa.com

www.offissa.com

offissa.dizayn

Offissa Dizayn

Offissa Dizayn

Onlayn Kataloq

Siviero Maria®




*Handmade in Italy*

GELATO ITALIANO AUTENTICO

